**“Bakıelektrikşəbəkə” Açıq Səhmdar Cəmiyyətinin “Azərişıq” Açıq Səhmdar Cəmiyyəti adlandırılması və onun fəaliyyətinin təşkili ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin “Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında” 2014-cü il 3 mart tarixli 119 nömrəli Fərmanında və bəzi sərəncamlarında dəyişikliklər edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Bakıelektrikşəbəkə” Açıq Səhmdar Cəmiyyətinin “Azərişıq” Açıq Səhmdar Cəmiyyəti adlandırılması və onun fəaliyyətinin təşkili ilə əlaqədar **qərara alıram:**

1. “Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 3 mart tarixli 119 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, 3, maddə 240, 9, maddə 1027) 3-cü hissəsində “Bakıelektrikşəbəkə” sözü “Azərişıq” sözü ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 17 sentyabr tarixli 895 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, 9, maddə 582; 2010, 2, maddə 80) ilə təsdiq edilmiş “Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli üzrə Dövlət Proqramı”nın II hissəsinin 8-ci, 13-cü və 19-cu bəndlərinin “İcra orqanları” sütununda “Azərenerji” Səhmdar Cəmiyyəti” sözləri “Azərişıq” Açıq Səhmdar Cəmiyyəti” sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 6 fevral tarixli 125 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, 2, maddə 85, 11, maddə 886; 2010, 7, maddə 610; 2011, 2, maddə 85; 2014, 2, maddə 112, 5, maddə 477) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında kurortların 2009-2018-ci illərdə inkişafı üzrə Dövlət Proqramı”nın 2.3.1-ci yarımbəndinin “İcraçı qurumlar” sütununda “Azərenerji” sözü “Azərişıq” sözü ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 18 mart tarixli 1408 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, 3, maddə 226; 2014, 9, maddə 1112) ilə təsdiq edilmiş Əlavə 2 - “Bakı Metropoliteninin 2011-2015-ci illərdə inkişafına dair Dövlət Proqramı”nın 5-ci hissəsinin - “Bakı Metropoliteninin 2011-2015-ci illərdə inkişafına dair Dövlət Proqramının həyata keçirilməsi üçün Tədbirlər Planı”nın 4.1-ci bəndinin “İcraçı” sütununda “Bakıelektrikşəbəkə” sözü “Azərişıq” sözü ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 17 yanvar tarixli 232 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, 1, maddə 45, 7, maddə 870, 9, maddə 1027) ilə təsdiq edilmiş “2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı”nın həyata keçirilməsi üzrə Tədbirlər Planı”nın 2.1.2-ci, 2.2.2-ci, 2.3.2-ci, 2.4.2-ci, 2.5.2-ci, 2.6.2-ci, 2.7.2-ci, 2.8.2-ci, 2.9.2-ci, 2.10.2-ci, 2.11.2-ci, 2.12.2-ci və 2.12.5-ci yarımbəndlərinin “İcraçılar” sütununda “Bakıelektrikşəbəkə” sözü “Azərişıq” sözü ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 1 iyun 2016-cı il
932